

Şahmar ƏKBƏRZADƏ

**MƏRKƏZİ POÇTXANA**

Mərkəzi poçtxana, əlac et yenə
Havayı düşməyib buraya yönüm.
Pənah gətirmişəm könlümü sənə,
Bir gör neyləyirsən, gözünə dönüm.
Bu payız küsəcək məndən Qarabağ,
Yollarda qalacaq gözü yolların.
Payım budaqlardan özün asacaq,
Bağrı çatlayacaq gülöyşə narın.
Üstdə dizin-dizin iməklədiyim
Torpağın könlünü nə təhər alım?
Anamdır, bəs ona nə təhər deyim,
Yanına gəlməyə yoxdur macalım?
Mənə kod göstər ki, zəng vura bilim
Dağların marala qalan çağına.
Pərişanlığımı çatdıra bilim
Otların sarala qalan çağına.
Morze əlifbanı Tanrı bilərəm,
Bu işi boynuna götürə bilsən.
Tamarzı könlümü bu saat, bu dəm
Bir acı yovşana yetirə bilsən.
Olarmı təcili teleqram verim
Qönçə balaları solan güllərə.
Sovqat öpüşüm var, necə göndərim
Çörəkli çöllərə, barlı çöllərə?
Bir quşam, mənimki gətirib belə,
Çıxmaz ürəyimdən Əppəkli dərə.
Həsrətim çatarmı, görən, poçt ilə
Qızıl kövşənlərdə bildirçinlərə?!
Mərkəzi poçtxana, sifarişim var,
Amandır, qoyma ki, gec eləsinlər!
Xəbər ver, Cənuba köçən durnalar
Bu gecə qəlbimdə gecələsinlər.
İndeksi olmayan bu məktubları
Yalqız yuvalara çatdır birtəhər.
Həsrətim oranı isitsin barı
Sahibi qürbətdən gələnə qədər.
Payız sularının layla səsini,
Anamın ətrini hardan alım bəs?
O yerə burnumun göynərtisini
Teleqraf telləri apara bilməz.
Mərkəzi poçtxana, əlac et yenə,
Havayı düşməyib buraya yönüm.
Pənah gətirmişəm könlümü sənə,
Bir gör neyləyirsən, gözünə dönüm!

**1977**